# Turizm ölkələri, xalqları bir-birinə yaxınlaşdırır



**Azərbaycan elə bir coğrafi məkanda yerləşir ki, burada təbiətin demək olar ki, bütün gözəlliklərinə rast gəlinir. Azərbaycanın turistik bölgəyə çevrilməsi üçün burada çox geniş imkanlar var. Turizmin inkişafı iqtisadiyyatımızın güclənməsi, gəlirlərin xeyli artması və ən başlıcası regionların sosial-iqtisadi inkişafının əsasını təşkil edə bilər.**

Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizdə turizmin inkişafını vacib istiqamətlərdən biri kimi şəxsən diqqətdə saxlayır. Buna ən bariz nümunə 2011-ci ilin Azərbaycanda "Turizm ili" elan olunmasıdır. Bu addım, şübhəsiz ki, ölkəmizdə turizmin inkişafının yeni mərhələyə qalxmasına öz töhfəsini verəcək. Ölkəmizdə turizmin inkişafı sahəsində qarşıya qoyulan əsas məqsədlər kifayət qədər genişdir: turizm ehtiyatlarının öyrənilməsi, genişləndirilməsi, turistlərin tələbatının ödənilməsi üçün zəruri xidmətlərin təşkili və müasir standartlara uyğunlaşdırılması, sanatoriya-kurort imkanlarının genişləndirilməsi, mehmanxanaların və digər turizm obyektlərinin sayının artırılması, turizm marşrutlarının çoxaldılması və son zamanlar bu istiqamətdə müsbət dinamika artmaqdadır. Hər il ölkəmizdə 25-50 yeni mehmanxana, hotel və digər turist yerləşdirmə obyektlərinin təməli qoyulur. Bundan əlavə, iş adamlarında da turizm sahəsinə geniş maraq yaranıb. 10 il əvvəl ölkəmizdə cəmi 32 turizm şirkəti olduğu halda, indi bu göstərici 123-ə çatıb.

Müasir dövrümüzdə turizm bölgəsinə çevrilmək təkcə iqtisadi baxımdan deyil, həm də siyasi baxımdan ölkəmiz üçün çox vacibdir. Çünki bu gün dünyada gedən proseslər və təhlükəsizlik məsələləri baxımından turizmin inkişafı labüddür.

Turizm həm də ölkələri, xalqları bir-birinə yaxınlaşdırır, beynəlxalq münasibətləri gücləndirir, iqtisadi və mədəni əlaqələrin inkişafına təkan verir. Turizmin həcmini artırmaqla, turistik bölgəyə çevrilməklə biz eyni zamanda regionların sosial-iqtisadi inkişafını çox sürətlə və effektiv şəkildə həyata keçirə bilərik.

Təbii sərvətlərimiz, rəngarəng iqlimimiz, zəngin tarixi-mədəni irsimiz cəlbedici turizm məhsulu yaratmaq üçün mühüm zəmindir. Bununla yanaşı, Azərbaycan dövləti turizm sahəsinin inkişafını iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqamət elan edib. Son 10 il ərzində ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi bunu bir daha sübut edir. Bu tədbirlər nəticəsində Azərbaycanda turizm sənayesi yeni mərhələyə qədəm qoyub, ölkəmiz dünyada yeni turizm istiqaməti kimi tanınmağa başlayıb, beynəlxalq turizm bazarına inteqrasiya ilbəil daha geniş şəkildə təmin olunur.

Birinci Avropa Oyunları Azərbaycanın turizm sektorunun inkişaf etdirilməsi üçün geniş imkanlar yaratdı. Oyunların keçirilməsi ərəfəsində və yarışların davam etdiyi günlərdə dünyanın müxtəlif yerlərindən ölkəmizə turist axını oldu. İlk Avropa Oyunları Azərbaycanın mədəniyyətinə, idmanına, iqtisadiyyatına, turizminə böyük töhfələr verdi. Avropa Oyunlarının möhtəşəmliyi, təşkilatçılıq və qonaqpərvərliyimiz turistlərin yaddaşına həkk olundu.

Dünya turistlərinin diqqətini Azərbaycanın gözəl, füsunkar təbiətinə yönəltmək üçün bu gün müxtəlif istiqamətlərdə fəal işlər aparılır. Ölkənin turizm potensialını təbliğ etmək, yerli adət-ənənələri, milli mətbəxi, mədəni və tarixi irsi tanıtmaq məqsədilə kitablar, disklər hazırlanır və yayılır, dünyanın müxtəlif televiziya kanallarında reklamlar nümayiş etdirilir, həyata keçirilən yeni layihələr barədə reklam və elanlar verilir, bu istiqamətdə internetin imkanlarından geniş istifadə olunur. Ümumilikdə son 2 ildə ölkəyə gələn turistlərin sayı 41 faiz yüksəlib. Bu uğur Dünya Turizm Təşkilatı tərəfindən də qeyd olunub. Uğurlarımızın davamlılığı bu əminliyə əsas yaradır ki, növbəti illərdə turizm sahəsində də göstəricilər daha yüksək rəqəmlərlə ifadə olunacaq.

**Mənsumə Babayeva,**
***"İki sahil"***